Dünyada hökm sürən və ölkəmizdən də yan keçməyən koronavirus pandemiyası Azərbaycan qazının hasilatına mane ola bilmir. Belə ki, qazçıxaranlar virusla mübarizə üçün qarşıya qoyulan tələblərə əməl etməklə karbohidrogen yataqlarından mavi yanacaq hasilatını müvəffəqiyyətlə həyata keçirirlər. Qazın ixracı da ahəngdar şəkildə davam edir.



# Azərbaycan qazının hasilatında və ixracında heç bir çətinlik yoxdur

## Düşmən qlobal layihələrimizə dalandan həsrətlə baxmağa davam edir

Ümumiyyətlə, istər pandemiya, istərsə də ölkəmizin ay yarım düşmənlə müharibə aparması Azərbaycan neftçilərinin əlini işdən-gücdən soyutmayıb. Həm dənizdəki, həm də qurudakı yataqlarda neft-qaz hasilatı öz qaydasında gedir. Azərbaycanın Vətən müharibəsində qazandığı böyük Qələbə neft və qazçıxaranları yeni uğurlara səsləyir.

Energetika Nazirliyinin məlumatına görə, cari ilin 9 ayında ölkədə keçən ilin müvafiq dövrünə nisbətən 5,9 faiz, yəni 1,5 milyard kubmetr artımla 27,5 milyard kubmetr təbii qaz hasil edilib. Qazın 8,7 milyard kubmetri "Azəri-Çıraq-Günəşli" və 13,3 milyard kubmetri "Şahdəniz" yataqlarından əldə olunub. SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) üzrə isə bu dövrdə 5,5 milyard kubmetr qaz hasil edilib.

Azərbaycan ölkə əhalisinin və iqtisadiyyatının mavi yanacağa olan tələbatını ödəməklə yanaşı, xaricə də qaz ixrac edir. Belə ki, 2006-cı ilin axırlarından Gürcüstana və bundan az sonra Türkiyəyə "Şahdəniz"dən çıxarılan qazın nəqlinə başlanıb.

Hazırda Gürcüstana qaz Cənubi Qafqaz Boru Kəməri (CQBK) ilə ixrac edilir. Bu kəmər marşrutu Səngəçal terminalından başlayaraq ölkəmizin ərazisində 13 rayondan keçir və Gürcüstanda yolunu davam etdirərək mavi yanacağı oradakı istehlakçılara çatdırır.

Energetika Nazirliyindən bildirilib ki, bu ilin 9 ayında Gürcüstana ixrac edilən qazın həcmi 1,6 milyard kubmetr olub.

Türkiyəyə isə mavi yanacağı TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) nəql edir. Genişləndirilmiş CQBK ilə kommersiya qaz həcmlərinin TANAP-a təhvil verilməsinə 2018-ci ilin iyununda başlanıb.

TANAP-ın fəaliyyətinin birinci ilində Türkiyə bu kəmərlə 2 milyard kubmetr Azərbaycan qazı tədarük edib. Ticari əməliyyatların ikinci ili bu il iyunun 30-da bitib və həmin tarixə kəmərlə nəql edilən qazın həcmi 6 milyard kubmetrə çatıb. Cari ilin yanvar-sentyabr aylarında bu boru xətti ilə Türkiyəyə 3,2 milyard kubmetr təbii qaz göndərilib.

Bu il qardaş ölkəyə 4 milyard kubmetr, gələn il isə 6 milyard kubmetr Azərbaycan təbii qazının nəql edilməsi nəzərdə tutulub. Ümumiyyətlə, TANAP-la ilk mərhələdə ildə 16 milyard kubmetr qazın nəqli gözlənilir ki, bunun da 6 milyard kubmetri Türkiyə, 10 milyard kubmetri isə Avropa ölkələri üçündür.

TANAP boru kəmərinin ikinci fazası keçən il noyabrın 30-da istifadəyə verilib, yəni kəmər TAP-la (Trans-Adriatik Qaz Boru Kəməri) qovuşduğu məkana çatdırılıb. Beləliklə, TANAP qazın Avropaya nəql edilməsi üçün hazır vəziyyətə gətirilib. Artıq TAP kəmərinə sınaq məqsədilə 21,4 milyon kubmetr qaz vurulub.

Beləliklə, erməni vandallarının neft-qaz kəmərlərimizə xələl yetirmək niyyəti də gözündə qaldı. Düşmən Azərbaycanın qlobal layihələrinə, böyük uğurlarına sıxışdırıldığı dalandan həsrətlə baxmaqda davam edir.

Hazırda Azərbaycan digər "düşmən"lə - koronavirus pandemiyası ilə mübarizə aparır. Bununla belə təbii qazın Cənubi Avropaya çatdırılmasına heç bir maneə yoxdur. SOCAR-ın rəsmi nümayəndəsinin bildirdiyinə görə, artıq bu ay TAP "Şahdəniz" yatağından hasil edilən qazın ildə 10 milyard kubmetrlik həcminin qəbulu üçün hazır olacaq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

Azərbaycan. - 2020.- 13 noyabr.- S. 10.